# CÜMHURİYYƏT DÖVRÜ MİLLİ MƏTBUATIMIZ VƏ DÖVLƏTÇİLİK

**Namiq Əhmədov**

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: tuqay59@mail.ru

**Xülasə**. Məqalədə Cümhuriyyət dövründə mətbuata verilən önəm diqqətə çatdırılır. Milli istiqlal elan edildikdən sonra "Azərbaycan" qəzeti nəşrə başlayır. Nəşrlər üzərində nəzarət ləğv edilir. Bu dövrdə mətbuatın fəaliyyətini tənzimləyən ilk qanunverici akt-"Mətbuat haqqında Nizamnamə" qəbul edilir. Məqalənin bir hissəsi Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc) fəaliyyətinə həsr edilmişdir.

**Açar sözlər**: AXC, milli ideya, "Azərbaycan" qəzeti, "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" şüarı, AzərTAc.

**OUR NATIONAL PRESS AND STATEHOOD DURING THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC PERIOD**

**Namig Ahmadov**
*Baku State University,*
*Baku, Azerbaijan*

**Abstract**. This article highlights the importance attached to the press during the Azerbaijan People’s Republic period. After the proclamation of the national independence, the newspaper “Azerbaijan” has begun to be published. Censorship was fully abolished. During this period, the first legislative act regulating the activity of the press – the “Statute on the Press” was adopted.
Part of the article is about the activity of the heritage of the Azerbaijan Democratic Republic – the Azerbaijan State Telegraph Agency (AzerTAc).
**Keywords**: ADR, national idea, “Azerbaijan” newspaper, the slogan “Turkify, Islamize and Modernize”, AzerTAc.

**НАЦИОНАЛЬНАЯ ПЕЧАТЬ И ГОСУДАРСТВЕННОСТЬ В ПЕРИОД АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ**

**Намик Ахмедов**
*Бакинский Государственный Университет,*
*Баку, Азербайджан*

**Резюме**. В данной статье отмечается особое значение, придаваемое прессе в период Азербайджанской Демократической Республики. После провозглашения национальной независимости, начала издаваться газета «Азербайджан». Была отменена всякая цензура на печать. В этот период был принят первый законодательный акт, регулирующий деятельность прессы – «Устав о печати». Часть статьи посвящена деятельности Азербайджанского государственного телеграфного агентства (АзерТАдж), являющегося детищем правительства Азербайджанской Демократической Республики.
**Ключевые слова**: АДР, национальная идея, газета «Азербайджан», лозунг «Тюркизация, исламизация, модернизация», АзерТАдж

## 1. Giriş

Türk–İslam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) mustəqilliyini elan etməsi xalqimiz ucun taleyüklü bir uğur idi. 1918-ci il mayın 28-də demokratik və ümumbəşəri dəyərlərə söykənən ilk respublika – AXC-nin çəmi 23 aylıq tarixi olsa da, onun yaratdığı milli istiqlal ideyaları azərbaycançılıq tariximizin ən şərəfli səhifələrindən oldu. AXC az bir vaxtda parlamenti, hökuməti, ordusu,

gömrük və hüquq mühafizə orqanları olan, dövlət rəmzlərinə malik, vətəndaş hüquqlarını hər şeydən uca tutan demokratik, dünyəvi və unitar dövlətə çevrildi. Amalı millət yolu, haqq yolu olan AXC yarandığı ilk gündən "türkləşmək, islamlaşmaq, müasirləşmək" şüarını rəhbər tutaraq cəmiyyətin bütün sahələrində süqutunun son gününə kimi apardığı geniş islahatları davam etdirmişdir. Siyasətçilərin də qeyd etdiyi kimi "...Qafqaz regionunda maraqların kəskin şəkildə toqquşduğu dramatik tarixi zamanda Azərbaycanda cümhuriyyət yaranmasaydı, sonradan ölkəmizin müttəfiq respublika kimi Sovet İttifaqının tərkibinə daxil olması və bu İttifaq da dağılarkən, bir suveren dövlət kimi öz müstəqilliyini bərpa etməsi də mümkün olmayacaqdı" [6].

## 2. Rəsmi dövlət orqanı "Azərbaycan" qəzetinin nəşri

Azərbaycan Xalq Cümhuriyyətinin 23 ay ərzində qəbul etdiyi qərarların hər birinin kökündə demokratiyanın bərqərar olunması, milli ruhun yüksəldilməsi dayanırdı. Qısa müddət ərzində dövlət atributlarının, dövlət və hərbi quruculuq, iqtisadiyyat və mədəniyyət, təhsil və səhiyyə sahələrində qanun və qərarların qəbul edilməsi tarixi reallıqlar idi.

AXC dövründə mətbuat və nəşriyyat işinin yenidən qurulması üçün də tarixi qərarlar qəbul etdi. Mətbuat və söz azadlığının təmin edilməsi Cümhüriyyətin demokratik dəyərlərə verdiyi önəmin təzahüri idi. "Azərbaycan mətbuatı tarixində 1918-20 illər, bütün əvvəlki dövrlərə nisbətən, ən yüksək inkişaf mərhələsidir. Bu dövrün mətbuatı həm keyfiyyət, həm də kəmiyyət baxımından, milli mədəniyyətin mühüm tərkib hissəsi kimi, Azərbaycan həyatının canlı salnaməsinə çevrildi. 1918-ci il iyulun 3-də Azərbaycan Cümhuriyyəti hökuməti «Azərbaycan Cümhuriyyəti hökumətinin xəbərləri»nin nəşri haqqında qərar qəbul etdi. Həftədə iki dəfə nəşr olunan hökumət xəbərlərində əsasən rəsmi qərarlar, əmrlər, təlimatlar dərc edilirdi. İki il içərisində ölkədə 100-ə yaxın adda qəzet və jurnal çıxmışdır" [4, s.73]. "Molla Nəsrəddin", "İstiqlal", "Azərbaycan", "Açıq söz", "İqbal", "Dirilik", "Təkamül", "Mədəniyyət", "Qurtuluş" kimi mətbu orqanlar milli ideyaların carçısı idi. Təsadüfi deyildir ki, o dövrdə Azərbaycanda söz, mətbuat və vicdan azadlığı yüksək səviyyəyə çatmışdı. Hökumətin 1918-ci il 9 noyabr tarixli sərəncamı ilə kütləvi informasiya vasitələri üzərində dövlət nəzarəti ləğv edilmişdi. Parlamentin 1919 il 30 oktyabr tarixli qərarı ilə qəbul etdiyi "Mətbuat haqqında nizamnamə"də göstərilirdi ki, "Mətbuat, litoqrafiya və buna bənzər müəssisələrin açılması üçün, habelə çap məhsulunun nəşri və satılması üçün Hökumət idarələrinin heç bir icazəsi tələb olunmur". Dövri nəşrlərin təsis və nəşr olunması üçün ancaq mətbuat işləri üzrə baş müfəttişə ərizə təqdim edilməsi kifayət edirdi.

Cümhuriyyət ideyalarını təbliğ edən "İstiqlal" (1918-20), "Azərbaycan" (1918-20), "Övraqi-nəfisə" (1919), "Müsəlmanlıq" (1917-19), "Qurtuluş" (1920), "Mədəniyyət" (1920), " Gənclər yurdu" (1918), "Şeypur" (1918-19), "Zənbur" (1919) kimi milli istiqlal ideyalı mətbuat geniş oxucu auditoriyanın daha çox diqqətində idi. Cümhuriyyət mətbuatının sələfləri əslində 1911 ildən sonra meydana gəlmiş, onun ideyalarını ilk dəfə konsepsiya şəklində təbliğ edən "İqbal" (1912-15), 1914 il oktyabrın 15-də "Dirilik" jurnalının, 1915 il oktyabrın 2-də

milli proqramlı "Açıq söz" qəzetinin nəşrə başlaması cəmiyyətdə ciddi bir oyanışın təntənəsi idi.

Xilas yolunu məfkurə birliyində görən və çağrışları ilə butövlüyü, müstəqilliyi təbliğ edən "Açıq söz" qəzeti qarşıya qoyduğu məramı 1-ci sayında ortaya qoymuşdu: "Ayrı-ayrı millətlər bir millət olaraq yaşaya bilmək üçün hər şeydən əvvəl özlərini bilməli, müəyyən fikir və əməllər ətrafında birləşərək böyük bir məfkurəyə, qayeyi-xəyalə hədəf olacaq işıqlı ulduza sahib olmalıdırlar" [1]. Qəzetin elə ilk saylarında diqqəti cəlb edən daha bir ümdə məsələ də qəzetin adının altında "Gündəlik türk qəzetidir" sözlərinin yazılması, onun türk dünyası ilə bağlılığının bariz nümunəsi idi. Hətta qəzet mətbuat tariximizdə ilk dəfə olaraq xalqımızın adının "müsəlman", "tatar" olmasına etirazını bildirmiş, "Türk xalqı" olduğumuzu təkidlə sübüt etmişdir.

Obyektiv mövqeyi, milli ruhu və yüksək ideya fəallığı ilə seçilən "Açıq söz" 725-ci nömrəsindən sonra könüllü olaraq fəaliyyətini dayandırdı. Bundan sonra "Açıq söz"ün yerini o dövrün ən mütərəqqi mətbu orqanlarından biri sayılan "İstiqlal" qəzeti tutdu. İlk sayı 1919-cu ilin fevralında çıxan bu qəzet 8 səhifəlik idi. Həftədə bir dəfə buraxılan qəzetin 42 nüsxəsi çap edilərək oxuculara çatdırılmışdır. Qəzetin başlığında böyük türk şairi Tofiq Fikrətin epiqraf kimi verilmiş məşhur "Millət yoludur, haqq yoludur tutduğumuz yol. Ey haqq! Yaşa, ey sevgili millət, yaşa, var ol!" misraları həm də AXC-nin məram və niyyətini əks etdirən epiqraf idi. Sonralar mətbuat tədqiqatçısı Asif Rüstəmli "İstiqlal"ın fəaliyyətini dəyərləndirərək yazırdı: "... qəzet həqiqətən də millətlərin və insanların azadlığını müdafiə etmiş, təmsilçisi olduğu firqənin demokratik ənənələrinə, yürütdüyü açıq və ardıcıl xəttə sadiq qalmışdır" [8, s.38].

Azərbaycanda milli istiqlal elan edildikdən sonra, milli mətbuatın qarşısında yeni vəzifələr durdu. Əsas vəzifə Xalq Cümhuriyyətinin qorunub saxlanmasından, daxili və xaric təhlükələrə qarşı ideoloji mübarizə aparmaqdan ibarət idi. 1918-ci il sentyabrın 15-də Gəncədə rəsmi dövlət orqanı "Azərbaycan" qəzetinin ilk nömrəsinin çapdan çıxması da bu zərurətdən irəli gəlirdi. Qəzet həmin dövrə qədər çap olunan bir çox nəşrlərdən fərqli olaraq gənc, müstəqil Azərbaycan dövlətinin həyatında baş verən ictimai-siyasi və iqtisadi prosesləri işıqlandırırdı. "Azərbaycan" qəzetinin meydana çıxması tədricən XIX əsrin ikinci yarısından etibarən başlanan və XX yüzilliyin əvvəllərində genişlənib milli hərəkata çevrilmək proseslərini yaşayan azərbaycançılıq dalğasının məntiqi nəticəsi idi" [7].

İki dildə nəşr edilən "Azərbaycan" qəzetinin Azərbaycan dilində 443, rus dilində isə 438 sayı oxuculara təqdim edilmişdir. İlk sayları "Heyəti-idarə", "Heyəti-təhririyyə", yəni "Redaksiya heyəti", sonralarsa müxtəlif vaxtlarda Üzeyir Hacıbəyli, Ceyhun Hacıbəyli, Xəlil İbrahim, rus variantı isə Səfi bəy Rüstəmbəylinin baş redaktorlugu ilə nəşr edilmişdir. Qısa müddətdə böyük nüfuz qazanmış "Azərbaycan" Üzeyir bəy Hacıbəyli, Məhəmməd Əmin Rəsulzadə, Mirzəbala Məmmədzadə, Xəlil İbrahim, Məhəmməd Hadi, Zülfüqar Hacıbəyov, Əhməd Cavad, Ömər Faiq Nemanzadə, Salman Mümtaz, Fərhad Ağazadə, Şəfiqə

Əfəndizadə, Məhəmməd ağa Şaxtaxtlı, Firudin bəy Köçərli, Seyid Hüseyn, İbrahim Xəlilov, Cəfər Cabbarlı, Abdulla Şaiq, Qafur Rəşad Mirzəzadə, Şəfi bəy Rüstəmbəyov, Yusif Vəzir Çəmənzəminli kimi digər nüfuzlu ziyalıların, milli problemlərin səsləndirildiyi möhtəşəm tribunaya çevrilmişdi.

"Azərbaycan" qəzeti bu illər ərzindəki nəşri zamanı Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının ən müxtəlif sahələrini öz səhifələrində geniş əks etdirmişdir. "Haqlı olaraq qeyd edildiyi kimi, "Azərbaycan" qəzeti Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin mətbu salnaməsidir. "Azərbaycan" qəzetinin Gəncə və Bakı nəşrlərində Xalq Cümhuriyyəti hökumətinin həyatında baş vermiş bütün hadisələr və proseslər özünün layiqli əksini tapmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin istiqlal bəyannaməsi, AXC Milli Məclisinin işə başlaması və fəaliyyəti, Bakının Qafqaz İslam Ordusu tərəfindən azad olunması, Bakı Dövlət Universitetinin yaradılması, dövlət müstəqilliyinin ildönümünün qeyd edilməsi, hətta hakimiyyətin bolşeviklərə təhvil verilməsi zərurəti və s. kimi tarixi hadisələri bütün təfərrüatı ilə öyrənmək üşün "Azərbaycan" qəzeti mötəbər mənbədir" [7].

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və Bakıda bolşevik hökumətinin qurulmasından sonra respublikada müstəqil və demokratik mətbuat ənənələrinə son qoyulmuş, Xalq Komissarları Soveti 27 oktyabr 1920-ci ildə "Mətbuat haqqında" Dekret imzalamış, mətbuata qarşı açıq repressiya xarakteri daşıyan bu sənədlə 2 ay ərzində 92 qəzet bağlanmışdı.

### 3. "AzərTAc" - informasiya blokadasını yarmağa doğru

"AXC-nin mətbuat və informasiya sahəsində atdığı daha uğurlu bir addım Azərbaycan Dövlət Teleqraf Agentliyi, qısaca olaraq "AzərTAc"-ın yaradılması ilə bağlıdır" [3, s.15]. Milli hökumət Azərbaycan ətrafında mövcud informasiya blokadasını yarmağa, respublikanı dünya miqyasında tanıtmağa, fəaliyyəti haqqında xalqı məlumatlandırmağa ciddi ehtiyac duyurdu. Həm də Müsəlman Şərqində ilk dəfə olaraq Cümhuriyyətin qurulduğunu elan etmiş demokratik bir quruluş informasiya məkanının yaradılmasına da biganə qala bilməzdi. Əslində bu reallığı anlayan hökumət hələ 1919-cu il martın 3-də Nazirlər Şurasının iclasında Azərbaycan Teleqraf Agentliyinin təşkili edilməsi məsələsi gündəliyə salmış və müzakirə olunmuşdu. İclasda Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin bu məsələnin vacibliyini açıqlayan məruzəsi dinlənilmiş, hətta o vaxtlar Xalq Maarif naziri olan Nəsib bəy Yusifbəyli Azərbaycan Teleqraf Agentliyinin təşkil edilməsi haqqında rəsmi tapşırıq da almışdı. Amma ilk gündən ortaya cıxan texniki cətinliklər, daha doğrusu agentliyinin real fəaliyyətinin, informasiyanın qəbulu və ötürülməsinin bilavasitə radio – texniki vasitələrdən asılı olduğundan bu qərar dəyişdirilmiş, agentliyin təşkil olunması məsələsi Xalq Maarif Nazirliyindən alınaraq Poçt və Teleqraf Nazirliyinin sərəncamına verilmişdi.

Azərbaycan Teleqraf Ajanslığının –AzərTAc-ın ştatlarının layihəsi və əsasnaməsi [5] 1920-ci il fevralın 2-də hökümətin iclasında müzakirə edilir və müəyyən dəyişikliklərlə

parlamentə çıxarılması qərara alınır. Bundan təxminən 20 gün sonra-- fevralın 23-də parlamentin iclasında çox operativ müzakirələrdən bir həftə sonra Azərbaycan Teleqraf Ajanslığı – “AzərTAc” fəaliyyətə başladı. Cümhuriyyətin rəsmi qəzeti olan “Azərbaycan” qəzeti 1920-ci il martın 2-də ilk dəfə olaraq “AzərTAc” imzası ilə xəbərlər yaydı. Bu agentliyin yaradılması haqqında olan bəzi mülahizələri təkzib edən və AzərTAc xəbər agentliyin 1920-ci il martın 1-də fəaliyyətə başladığını təsdiq edən önəmli fakt sayıla bilər. Qəzetin 3 mart tarixli nömrəsində də Şuşa, Qaryağın (Füzuli) və Xankəndidən alınmış qısa xəbərlər “AzərTAc-ın daxili xəbərləri” adı altında dərc edilmişdi.

Bolşevik Rusiyasının işğalı nəticəsində 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi və onun təsis etdiyi “AzərTAc” da cəmi iki aya yaxın bir müddətdə müstəqil fəaliyyət göstərə bildi. Elə həmin gün Rusiya Teleqraf Agentliyi –ROSTA bolşevik təbliğatına xas olan xüsusi bir “siyasi hiyləgərliklə” Bakıda çevriliş olduğunu və xalq kütlələrinin Azərbaycan Cümhuriyyətini devirdikləri barədə xəbərləri bütün dünyaya yaydı.

Sovet hakimiyyəti dövründə 8 dəfə ad dəyişikliyinə məruz qalan agentliyin tarixi adı Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra qaytarıldı: 1995-ci il martın 3-dən Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi, 2000-ci il yanvarın 17-dən isə Azərbaycan Dövlət Teleqraf Agentliyi adlandırılmağa başladı. Nəhayət, Prezident İlham Əliyevin 2015-ci il 26 fevral tarixli Sərəncamı ilə Azərbaycan Dövlət İnformasiya Agentliyi adlandırıldı. Beləliklə, hazırda dünyanın ən aparıcı informasiya agentlikləri ilə bir sırada duran, ən nüfuzlu informasiya agentlikləri qurumlarının üzvü, yerli və xarici kütləvi informasiya vasitələri üçün yeganə rəsmi dövlət informasiya mənbəyi olan, gün ərzində Azərbaycan, rus, ingilis, fransız, alman və ərəb dillərində fasiləsiz surətdə dəqiq və operativ informasiyalar hazırlayan Azərbaycan Dövlət İnformasiya Agentliyi (Azərbaycan Dövlət Teleqraf Agentliyi) də bu günümüzə Azərbaycan Xalq Cümhuriyyətinin yadigarıdır.

**Ədəbiyyat**

1. “Açıq söz” qəzeti, 2 təşrini-əvvəl (oktyabr), 1915.
2. “Açıq söz” qəzeti , 4 yanvar, 1918.
3. Aslanov A., Musayev V., İsmayılov D., (2008), AzərTAc-dan AzərTAc-a: mürəkkəb və şərəfl yol, Bakı: Şərq-Qərb, 184 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: İki cilddə, I cild, Bakı, Lider Nəşriyyatı, 2004, 440 s.
5. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA): f.51, siy.1, sax., vah. 33, vər.104.
6. Feyziyev Cavanşir “Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın milli oyanışının məntiqi yekunu idi”, Xalq qəzeti, 27 may 2011.
7. Həbibbəyli İ. Müstəqil Azərbaycanın “Azərbaycan”ı”, “Azərbaycan” qəzeti, 15.09. 2013.
8. Rüstəmli A., (2004), “Ədəbi istiqlalımız”, Bakı, “Elm” nəşriyyatı, s.384.